DOI: https://www.doi.org/10.36719/2663-4619/65/144-146

Sevil Əliheydər qızı Dəmirli
Bakı Dövlət Universiteti
magistrant
Sevil.damirli@mail.ru

AVROPA İTTİFAQINDA MÜQAVİLƏ POZUNTUSU PROSEDURU. İLKİN İCRAATIN ƏHƏMİYYƏTİ

Açar sözlər: *müqavilə pozuntusu, ilkin icraat, prosedur, Avropa Komissiyası, AİM məhkəməsi*

Infringement Procedure in the European Union. The importance of the preliminary procedure

Summary

Judicial practice formed in the practice of the European Court of Justice belongs to the category of the main sources of law of European law. This practice was the source of law referred to by all Member States and their respective judicial authorities. The article discusses the important place of the preliminary proceedings in the case of violation of the contract by the Court. In practice, the proper conduct of preliminary proceedings shows that court time is used effectively in many disputes. This reflects the European Court's exceptional legal role in ensuring the rule of law and its direct force. The article can be used by university students, teachers, lawyers, researchers, European legal scholars and other practitioners

Key words: *contract violation, the preliminary proceedings, procedure, European Comission, European Court of Justice*

Giriş

Avropa qitəsində yerləşən dövlətlərin ittifaq halında birləşməsi tarixən həmin dövlətlərin müqəddəs arzusu olmuşdur. XX əsrdə baş vermiş dünya müharibələrinin ağlasığmaz dəhşətlərini görmüş və həmin müharibələr nəticəsində böyük insan itkisinə məruz qalmış Avropada bu arzunun gerçəkləşdirilməsi xüsusən də keçən əsrin ortalarında obyektiv zərurətə çevrildi. Avropa İttifaqı mürəkkəb xarakterə malik olan unikal beynəlxalq inteqrasiya birliyidir. Avropa dövlətlərini birləşdirən bu birlik özündə həm federativ dövlətin, həm dövlətlərarası beynəlxalq təşkilatın, həm də dövlətəbənzər qurumun elementlərini birləşdirir. Avropa İttifaqı elə böyük və iri inteqrasiya birliyidir ki, faktiki olaraq, dünyada onun oxşarı və bənzəri yoxdur. Hər şeydən əvvəl deməliyik ki, Avropa İttifaqı dövlətdənüstün qurumdur. Belə ki, Avropa İttifaqının reqlament formasında qəbul edilən qərarlan üzv-dövlətlərin ərazisində birbaşa hüquqi qüvvəyə malikdir. (1,səh.6)

İndi isə Avropa Ittifaqının ədalət mühakiməsi ilə daha yaxından tanış olub, məhkəmə pozuntusu prosedurunu nəzərdən keçirək.

Üzv-dövlətlərin məhkəmələrində işlərə həddindən artıq uzun müddət ərzində baxılmasına dair şikayətlərin sayının Avropa İnsan Hüquqları Məhkəməsində əhəmiyyətli dərəcədə artması nəticəsində Avropa Şurası tərəfindən milli məhkəmə sisteminin səmərəliliyinə diqqət artırılmış və bəzi tövsiyələr hazırlanmışdır. (2) Təsis olunduğu vaxtdan keçən qısa bir müddət ərzində Komissiya tərəfindən İnsan Hüquqlarına dair Avropa Konvensiyasının 6-cı maddəsində təsbit edilmiş ədalətli məhkəmə araşdırması hüququnun daha səmərəli həyata keçirilməsi məqsədilə üzv-dövlətlərin məhkəmə sistemlərinin inkişafi üçün çox böyük işlər görülmüşdür. (3)

Avropa İttifaqının dövlətüstü hüquqi rejimi, Birlik qanunlarına uyğunluğu təmin etmək üçün məcburi məhkəmə nəzarətini yaratdı. Onu digər beynəlxalq hüquq sistemlərindən fərqləndirən də məhz elə budur.

Burada Avropa Komissiyasının rolu böyükdür. Komissiya, öz araşdırmalarına, vətəndaşlar, müəssisələr və ya maraqlı tərəflərin şikayətləri əsasında Avropa Birliyi qanunlarının mümkün pozuntularını müəyyənləşdirir.(4)

Avropa İttifaqının fəaliyyəti haqqında müqavilənin 258-ci maddəsinə əsasən müqavilə pozuntusu proseduru Avropa Komissiyası və üzv dövlətlərin istifadə edə biləcəyi iki vacib birbaşa müraciətdən biridir. (5, maddə 258) Bu zaman Avropa Komissiyası "müqavilələrin nəzarətçisi" olaraq məsuliyyət daşıyır. O, əsas (buraya təsis müqavilələrini misal göstərmək olar) və əlavə Birlik qanunlarına uyğunluğa nəzarət edir və onların tətbiqini təmin edir. Xüsusi nəzarət və izləmə səlahiyyətlərindən başqa Komissiya həmçinin üzv-dövlətlər tərəfindən törədilən müqavilə pozuntularından şikayət edə, onların Avropa İttifaqı Məhkəməsi tərəfindən yoxlanılmasını tələb edə bilər (4). Bildiyimiz kimi, Avropa İttifaqı Məhkəməsi dörd əsas funksiyanı yerinə yetirir ki, həmin funksiyalar aşağıdakılardan ibarətdir: təminat funksiyası, nəzarət funksiyası, yoxlama funksiyası və arbitr funksiyası. (1. səh, 201)

Məhkəmə yarandığı andan başlayaraq, məhkəmə hakimiyyətinin müstəqil və nüfuzlu institutlarından birinə çevrilmişdir. O, nəyinki hüquqtətbiqedici, o cümlədən hüquqyaradıcı institut olmaqla, Birlik və İttifaq daxilində

hüquq qaydalarının rəhbər başlanğıcı olmuş, təsis müqavilələrindəki çoxsaylı boşluqları aradan qaldırmışdır. Avropa konstitusiyası da üç fərqli məhkəmə instansiyasının yaradılmsını nəzərdə tutur:

1. Avropa İttifaqı Məhkəməsi
2. Ümumi Məhkəmə
3. İxtisaslaşdırılmış Məhkəmələr

Müqavilənin pozulması Avropa İttifaqı Məhkəməsi tərəfindən aşkar edildikdə, prosedur başladılır. Prosedur zamanı Məhkəmə işlərinin aparılması qaydası Məhkəmə Nizamnamələri, Avropa İttifaqı Məhkəməsinin, Birinci İnstansiya Məhkəməsi və İxtisaslaşdırılmış məhkəmə palatalarının prosessual reqlamentləri ilə tənzimlənir. (5, səh. 95)

Eyni zamanda Müqavilə pozuntusu proseduru üzv dövlətlərə Birlik qanunvericiliyinin pozulmasına görə məsul üzv-dövlətə qarşı iddia qaldırmaq fürsətini də təqdim edir.

258-ci maddəyə əsasən müqavilə pozuntusu iddiası, üzv-dövlətin Birlik qanunlarında göstərilən öhdəliklərini pozduğunu müəyyənləşdirməyə imkan verir (6, maddə 258). Buradan başa düşürük ki, bu prosedurun məqsədi üzv dövlətləri Birlik qanunları çərçivəsində öhdəliklərini yerinə yetirməyə sövq etməkdir. Üzv-dövlət aktlarının Birlik qanunları ilə uyğunluğunun nəzarəti iki formada həyata keçirilə bilər:

- 258-ci maddəyə əsasən komissiyanın nəzarəti kontekstində
- 259-cu maddəyə əsasən digər üzv dövlətin iddiası əsasında.

Müqavilə pozuntusu aşkar edildikdə, ilk əvvəl Avropa Komissiyası tərəfindən ilkin icraat həyata keçirilir. İlkin icraat xəbərdarlıq və süzgəc funksiyalarını yerinə yetirir. Prosedurun ən əhəmiyyətli mərhələsi sayılan bu mərhələdə Avropa Komissiyası üç addımda irəliləyir:

İlk əvvəl cavabdeh dövlətə ilkin icraatın başladılmasını elan edir, müqavilənin pozulmuş hesab etdiyi müddəaların faktlarını açıqlayır və müəyyən edilmiş müddətdə dövlətdən iddalara cavab gözləyir. (7)

Diqqət etmək lazımdır ki, müqavilə pozuntusu prosedurunun qəbul edilməsi üçün cavabdeh üzv-dövlətə Birlik qanunlarını pozduğu iddiasına münasibət bildirmə imkanı verilməlidir. Əks təqdirdə prosedur düzgün həyata keçirilmiş sayılmaz.

Bu şəkildə, suverenliyi qorumaqla, həmin üzv dövlətin pozuntuya son verməsinə gətirib çıxarmaq olar. Üzv-dövlətə verilmiş müddət sona çatdıqda, Komissiya özünün əsaslandırılmış açıqlamasını məhkəməyə təqdim edir.Vacib tərəflərdən biri də odur ki, Məhkəmə mübahisənin mövzusu ilkin icraatda göstərildikdən sonra genişləndirilə bilməz. Hələ ilkin məhkəmə icraatı başlamazdan əvvəl Komissiya fərdi iddihamların mövzusunu aidiyyəti üzv-dövlətin məsul nazirliyi ilə yazılı mübadilə yolu ilə müzakirə etməyə çalışır. (8)

Bu prosedurun məqsədi Komissiya tərəfindən iddia edilən pozuntu ilə əlaqədar mübahisələrin həlli üçün gizli yazışmalardan istifadə edərək, mediadan və ətrafdan qapalı şəkildə mübahisəni həll etməkdir. Düşünürük ki, bu üsul məhkəmədənkənar ən səmərəli üsuldur. Təcrübədə adətən Komissiya və cavabdeh üzv-dövlət rəsmilərinin problemə həll yolu tapmaq üçün birlikdə çalışdıqları paket yığıncaqlar da çağırılır. Rəsmi ilkin icraat yalnız bütün bunlar uğursuz olduqdan sonra başlanacaqdır. Lakin burada da istisnalar mövcuddur. Misal üçün Avropa İttifaqının fəaliyyəti haqqında qanunun 108-ci maddəsinin II bəndinə əsasən Komissiyaının formal yoxlanışı zamanı nəticə neqativ olarsa, ilkin icraat buraxılaraq birbaşa Aİ ədalət məhkəməsinə müraciət edilir. (6, maddə 108, bənd 2)

Bəzi hallarda cavabdeh üzv-dövlətlərin Komissiyanın müraciətinə vaxtında reaksiya verməməsi, bu müraciətə əməl etməməsi və yaxud Komissiyanın prosedur qaydalarını düzgün həyata keçirməməsinə şahid ola bilərik. Bu da ilkin icraat zamanı pozuntuların yaranmasına gətirib çıxarır. Nümunə olaraq 2017-ci ilin avqust ayında Avropa Komissiyasının müqavilələrdəki öhdəliklərə qarşı mümkün bir pozuntuya görə Almaniya Federativ Respublikasına qarşı başlatdığı istintaqı göstərmək olar (9). Komissiya Alman notar peşəsinin yalnız Alman vətəndaşları üçün açıq olmasını Avropa İttifaqının fəaliyyəti haqqında müqavilənin 49-cu maddəsində təsbit edilən ayrı-seçkilik hüququna zidd olduğuna əsaslanırdı. Əvvəlcədən yazışmalar aparmadan Almaniya Federativ Respublikasından 2017-ci ilin noyabrında iki ay müddətində iddia edilən pozuntuya münasibət bildirməsini istədi. Almaniya bu müraciətə göstərilən müddət ərzində reaksiya verməyib, yalnız may ayının əvvəllərində notariat sistemində edilən dəyişiklik səbəbindən vətəndaşlıq şərtinin ləğv edildiyini bildirdi. Buna baxmayaraq, Komissiya 2017-ci il may ayının ortalarında Avropa Birliyi Ədalət Məhkəməsinə bir iddia qaldırdı. Prosedur ərzində Almaniya cavab verərək bildirdi ki, komissiya prosedurun ilkin icraatını düzgün həyata keçirməyib, ona daha əvvəl özünü ifadə etmək üçün fürsət tanımamışdır. Komissiya sonrakı cavabında, prosedurunun nə zaman və necə başlanacağına qərar vermək yalnız onun səlahiyyətində olduğunu bildirərək qarşı çıxdı. Bu zaman Komissiyanın qaldırdığı iddianın qəbul edilməli olub-olmadığı mübahisələr yaratmışdır. Ədalət məhkəməsi müraciəti rədd etmişdir. (9)

Nəticə

Yuxarıda qeyd edilənlərər diqqət yetirsək, müqavilə pozuntusu prosedurunda ilkin icraatın düzgün həyata keçirilməməsinin məhkəmə vaxtının səmərəli təşkilinə də mənfi təsir etdiyini görərik. İlkin icraat eyni zamanda bəzi kateqoriya mübahisələrinin məhkəmədən kənar alternativ həlli üçün ədalət mühakiməsində önəmli yer tutur. Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının fəaliyyəti nəticə etibarı ilə bütün Avropa üzv-dövlətlərinin mənafeyi naminədir. Bunun üçün həm üzv-dövlətlər, həm də Avropa Komissiyası mübahisələri ədalət məhkəməsinə müraciət etmədən həll etmək üçün prosedur zamanl ilkin icraata önəm verməli, üzərlərinə düşən vəzifələri məsuliyyətlə yerinə yetirməlidirlər.

References

1. European law. Textbook / with general editing by E.A. Aliyev. Baku 2016
2. Jean-Paul Jean, Ramin Gurbanov. European Commission for the Efficiency of Justice CEPEJ Research №22. Council of Europe publication. 2016
3. European Convention for the Protection of Human Rights and Fundamental Freedoms. Amended in accordance with Protocols 11 and 14.
4. Schulze / Zuleeg / Classen. European law. A book for the practice of German law. 3rd edition. 2015
5. Rahib Akbarov. European law. Textbook. Baku 2016
6. Treaty on the activities of the European Union
7. 7.Prof. Dr. Matthias Pechstein. Exam scheme. European University Viadrina
8. Herrmann. European law. 6th edition. 2017
9. The European Commission against Germany. Rs. C-54/08

Rəyçi: h.f.d. T.Hüseynov

Göndərilib: 05.04.2021 Qəbul edilib: 06.04.2021